BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2014*

UOT 94(479.24)

# AXC DÖVRÜNDƏ SOSİAL-İQTİSADİ VƏZİYYƏT VƏ SOL YÖNÜMLÜ TƏŞKİLATLAR

**S.Q.AĞAYEV**
***Bakı Dövlət Universiteti***
***agayev.serxan@mail.ru***

*Məqalədə AXC dövründə sosial iqtisadi vəziyyət və sol yönümlü təşkilatların anti-hökumət fəaliyyətindən bəhs olunur. Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə daim sol yönümlü təşkilatların hökumət əleyhinə fəaliyyəti ilə üz-üzə gəlmişlər. Bu təşkilatlar istər parlamentdə qanunların qəbulu zamanı, istərsə də fəhlə və kəndlilərin işlədiyi yerlərdə öz pozuculuq fəaliyyətləri ilə məşğul olmuşlar. Yeni yaranmış dövlətin iqtisadi vəziyyəti o qədər də ürəkaçan deyildi. Bundan sol yönümlü təşkilatlar öz təbliğatı üçün geniş istifadə edirdilər.*

**Açar sözlər**: bolşevik, fəhlə, kəndli, iqtisadiyyat, hökumət

Azərbaycan Xalq Cümhuriyyəti mövcud olduğu dövrdə daim sol yönümlü təşkilatların hökumət əleyhinə fəaliyyəti ilə üz-üzə gəlmişdir. Bu təşkilatlar istər parlamentdə qanunların qəbulu zamanı, istərsə də fəhlə və kəndlilərin işlədiyi yerlərdə öz pozuculuq fəaliyyətləri ilə məşğul olmuşlar. Yeni yaranmış dövlətin iqtisadi vəziyyəti o qədər də ürəkaçan deyildi. Bundan sol yönümlü təşkilatlar öz təbliğatı üçün geniş istifadə edirdilər. Bu fəaliyyətlər 1919-cu ildən daha geniş vüsət almağa başladı. 1919-cu ildən başlayaraq RKP BK-nin yaradılması və bir sıra bolşevik yönümlü nəşrlərin yayılması müşahidə olunur. Bütün bu geniş fəaliyyətə baxmayaraq müsəlman fəhlələr daha çox "Musavat" firqəsinə etimad göstərirdilər. Bolşeviklərin pozuculuq fəaliyyətinə daha çox Bakıya kəsbkarlığa gəlmiş və ya Bakıda yaşayan rus və slavyan mənşəli xalqlar meyl edirdilər. Buna misal olaraq RKP BK-nin fəallarından olan İ.Yariginin xatirələrini göstərmək olar. Onun geniş fəaliyyət göstərdiyi Binəqədi rayonu haqqında qeydlərində də "Musavat" partiyasının fəaliyyəti müsəlmanlar arasında dəstəklənirdi. İ.Yarigin yazır: "Binəqədidə bütün firmalarda işləyən fəhlələrin ümumi sayı 4000 nəfərdir. Rayon şəhərdən aralıdadır, ətrafında isə Bakı kəndləri yerləşir. Bu Bakı kəndlərində isə Musavat partiyasının təsiri böyükdür. Fəhlələrin 90-95%-i türk və İrandan gələnlərdir. Əksəriyyət yaxınlıqda yerləşən kəndlərin əhalisidir" (1, 1,2).

Sosialist partiyaları liderlərinin rəhbərlik etdikləri Bakı Fəhlə Konfransı (BFK) yeni təşkil olunmuş hökumət üçün ciddi müxalifətə çevrilmişdi. 1918-ci il dekabrın 18-də BFK öz iclasında siyasi tələblər (tutulanların azad edilməsi, mətbuat, həmkarlar ittifaqları, yığıncaq azadlıqlarının bərqərar edilməsi haqqında və s.) təqdim etməklə, tətil keçirmək barədə qərar qəbul etdi. 1918-ci il dekabrın 24-də BFK-nın rəhbərliyi altında tətil başlandı. Tətilin gedişində menşevik Çurayevin sədrliyi ilə BFK-nın xüsusi iclası keçirildi. Hökuməti tanımamaq mövqeyində duran sosialist partiyalarının liderləri konfransın qərarını ingilis komandanlığına göndərdilər. BFK ingilis komandanlığından tələb edirdi ki, kollektiv müqavilənin bərpası üçün sənayeçilər və fəhlə konfransı nümayəndələrindən ibarət saziş komissiyası yaradılsın. İclasda iştirak edən M.Ə.Rəsulzadə BFK liderlərinin bu cür fəaliyyətlərinə kəskin etirazını bildirdi və xüsusilə qeyd etdi ki, bu cür ciddi məsələlərin həllində ingilis komandanlığını deyil, parlamentə arxalanan qanuni Azərbaycan hökumətini yeganə səlahiyyətli orqan sayır (2, 12-13). Fəhlə məsələsi hökumətin daxili siyasətində ən ciddi məsələlərdən biri olduğu üçün nə parlament, nə də BFK iclaslarının gündəliyindən düşürdü. Dekabr tətilindən sonra fəhlə konfransının iclasları daimi xarakter alaraq həftədə bir dəfə çağırılır və gündəlikdə əsasən siyasi xarakterli məsələlər qoyulurdu. 1919-cu ilin yanvarında milliyyətcə rus olan və onların yaxınlıq etdiyi fəhlə kütlələrinin bolşeviklərə meyl etməsi artıq aşkar hiss olunmağa başlayırdı. 1919-cu il yanvarın 8-də A.K.Kazımzadə parlament iclasında "Müsavat" fraksiyasının əmək nazirinə ünvanlanmış fəhlələrin çox ağır vəziyyəti haqqında sorğusunu oxudu: kollektiv müqavilə ləğv olunmuşdu və azaldılan əmək haqqı xərclərin yarısını zorla ödəyirdi. "Müsavat" fraksiyasının bu sorğusuna cavab olaraq əmək naziri A. Səfikürdski bildirdi ki, fəhlələrin vəziyyətinin ağır olması faktı doğrudur, hökumət onların vəziyyətinin yaxşılaşdırılması üçün bütün tədbirlərə əl atacaq (3, 13-16). Bununla əlaqədar olaraq A.Səfikürdskinin sədrliyi altında müttəfiqlər komandanlığı, neft sənayeçiləri, banklar və əmək haqlarının artırılması üzrə fabrik müfəttişliyi nümayəndələrinin iştirakı ilə müşavirə keçirildi. Müşavirədə qərara alındı ki, 1919-cu il yanvarın 1-dən əmək haqqına əlavə olaraq ayda subaylara 120 rubl, ailəlilərə isə 360 rubl müavinət verilsin. Neft sənayesinin vəziyyətini yaxşılaşdırmaq üçün neft sənayeçilərinə də 10 mln rubl ssuda vəd edildi (2). Bu istiqamətdə işi davam etdirən Əmək Nazirliyi 1919-cu il yanvarın 25-də səlahiyyətlərinə fəhlələrin əməyinin mühafizəsi və məişət şəraitinin yaxşılaşdırılmasının daxil olduğu fəhlə məsələsi üzrə xüsusi müşavirənin təşkilinə başladı. Xüsusi müşavirə tərəflərin bərabər təmsil edilməsi şərti ilə, fəhlə və sahibkarlığın nümayəndələri daxil olmaqla, 10 nəfərdən ibarət idi. Lakin fəhlə məsələsi xüsusi müşavirənin statusu Azərbaycan parlamentində yalnız 1919-cu il martın 10-da təsdiqləndi.

Torpaq məsələsi əvvəlki kimi həllini gözləyən başlıca məsələlər sırasında qalırdı. Hökumət onu həll etməyə tələsmirdi. Parlamentin iclasında çıxış edən baş nazir F.X.Xoyski torpaq məsələsinin həllini Müəssislər Məclisi çağırılana-

dək təxirə salındığını bildirdi. Bununla bərabər, aqrar məsələ tam həll olunana qədər mülkədar torpaq sahibliyini qoruyub saxlamaq məqsədəuyğun sayıldı və hökumətə tapşırıldı ki, onun toxunulmazlığı təmin edilsin (5, 15). Amma kəndlilərin ağır vəziyyəti hökuməti aqrar məsələni parlamentin müzakirəsinə çıxarmağa məcbur etdi. Azərbaycan parlamenti 1919-cu il fevralın 4-də keçirilmiş iclasında ilk dəfə olaraq aqrar məsələyə baxdı və onun tapşırığı ilə hümmətçi-menşevik Səməd bəy Ağamalıoğlunun başçılıq etdiyi aqrar komissiya yaradıldı. AXC-də iqtisadi və siyasi vəziyyət mürəkkəb olaraq qalmaqda idi. Rusiya ilə iqtisadi əlaqələrin qırılması, xüsusilə onun tələbatını ödəmək üçün şimala neft ixracının dayandırılması üzündən neft sənayesində dərinləşən böhran, işsizliyin artması, fəhlələrin vəziyyətinin daha da pisləşməsi və aqrar məsələsinin həll edilməməsi belə mürəkkəb vəziyyəti yaratmışdı. Bu mürəkkəb vəziyyət siyasi arenaya da öz təsirini göstərirdi. Bolşeviklər bütün mümkün cəhdlərlə hökumət əleyhinə təbliğat aparırdılar. Bütün bu təzyiqlər və koalisyon hökumətə etimad göstərilməməsi nəticəsində baş nazir N.Yusifbəyli 1919-cu il sentyabrın 13-də parlament sədrina yazılı müraciət etdi və göstərdi ki, koalisiyaya girdiyi partiyalarla hökumətə etimadsızlıq bildirən sosialistlər arasında dərin ixtilaflar meydana çıxdığı üçün bundan sonra özünün baş nazir vəzifəsində qalmasını mümkünsüz hesab edir (6, 119). Bütün bu hadisələrin fonunda 1919-cu il dekabrın 2-də Türk Demokratik Federalistlər "Müsavat" Partiyasının II qurultayı öz işinə başladı. Qurultayda bütün MK və parlament fraksiyası üzvləri də daxil olmaqla 140 nümayəndə, həmçinin digər siyasi partiyalardan qonaqlar və tanınmış ictimai xadimlər iştirak edirdilər. Siyasi sahə ilə yanaşı iqtisadi və sosial sahələrdə də geniş müzakirələr həyata keçirildi. Qurultayda çıxış edən Mirzə Bala Məmmədzadə aqrar siyasət sahəsində parlamentin fəaliyyətindən danışarkən göstərdi ki,"...tərkibində daha çox müsavatçılar olan və öz bəyanatında bəylərlə kəndlilər arasındakı mövcud ziddiyyətləri aradan qaldıracağını vəd etmiş hökumət öz vədini yerinə yetirmədi" (7, 40). O, "Müsavat" Partiyasının torpağın aqrar məsələ tam həll edilənə qədər bəylərin əlində qalmasını zəruri saydığına görə, heç olmazsa bəylərin kəndlilərdən vergi toplamasını dayandırmağı təklif edirdi. Aqrar məsələ hesabat məruzəsində öz ciddi əksini tapmadığına görə qurultay nümayəndələrinin tələbi ilə yenidən partiyanın aqrar proqramının müzakirəsinə qayıtdı və dekabrın 8-də keçirilən 4-cü iclasını tamamilə aqrar məsələnin müzakirəsinə həsr etdi. Məsələ barəsində fikrini bildirən 20 nümayəndənin əksəriyyəti qurultayın aqrar komissiyasının mövqeyini müdafiə etdi. Dörd saatlıq müzakirədən sonra həmin komissiyanın irəli sürdüyü aşağıdakı qətnamə qəbul olundu:

"1. Xəzinəyə, keçmiş çar ailəsinə, həmçinin mülkədarlara və xüsusi sahibkarlara məxsus olan torpaqlar əvəzsiz olaraq onların əlindən alınır və zəhmətkeş kəndlilər arasında bölüşdürülür.

2. Torpaqların zəhmətkeşlərə verilməsilə əlaqədar olaraq, suvarma qurğuları və motorlar alınır və onların dəyəri varlı siniflər üzərinə qoyulan gəlir vergisi hesabına yaranan fonddan ödənilir" (8, 89-90). Hesabat məruzəsində

qurultayın xüsusi diqqət yetirdiyi fəhlə məsələsi haqqında qeyd edildi ki, partiya müəssisələrin milliləşdirilməsinin tərəfdarı deyil və partiyanın Mərkəzi Komitəsi hökumətə ciddi kömək göstərməklə fəhlə məsələsi üzrə mümkün olan hər şeyi etmişdir. Bu tezis ciddi mübahisələrə səbəb oldu. Çıxış edənlər fəhlələrin və onların ailələrinin ağır güzəranından, evsizlik, yaxud barak şəraitində yaşamaları kimi problemlərindən bəhs edir, onların həll edilməməsini bu və ya digər dərəcədə "Müsavat" Partiyasının fəaliyyəti ilə əlaqələndirirdilər. Məsələn, "Müsavat" Partiyasının üzvü, gənc dramaturq Cəfər Cabbarlı qurultaydakı çıxışında partiya proqramında siyasi məsələlərlə yanaşı, iqtisadi məsələ lər də olmasına baxmayaraq, bu sahədə onun heç bir iş görmədiyini qeyd edirdi (9, 419)Hakimiyyət böhranının davam etməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin hökumət və parlamenti öz fəaliyyətlərini davam etdirir, vətəndaşların hüquq və azadlıqlarının real müdafiəsi istiqamətində mühüm əhəmiyyətli addımlar atırdı. 1919-cu il oktyabrın 30-da parlament tərəfindən qəbul edilmiş "Mətbuat haqqında Nizamnamə" məhz bu məqsədə xidmət edirdi. Oktyabrın 23-də parlamentin iclasında müzakirəyə çıxarılan Nizamnamə layihəsi sosialistlərin simasında dərhal müxalifətin tənqid hədəfinə çevrildi. Sosialistlərin etirazına səbəb olan əsas məsələ layihənin mətbuat orqanlarının açılması şərtləri haqqında maddəsində yerli hakimiyyət tərəfindən naşirin səlahiyyətlərinin yoxlanmasının nəzərdə tutulması idi. Layihəni "boyunduruq" adlandıran sosialist fraksiyası ümumiyyətlə mətbuat haqqında hər hansı qanun qəbul edilməsinə qarşı çıxdı (9, 421). Layihənin birinci oxunuşunda digər fraksiyalar "Əhrar" və "İttihad", həmçinin bitərəflərin bir hissəsi sosialistləri dəstəklədilər. Yad dövlətin təbəələrinə mətbu orqanlarını buraxmağı qadağan edən maddə daha kəskin mübahisələrə səbəb oldu. Nizamnamə layihəsinin bu maddəsinə qarşı xüsusi fəallıq göstərən sosialistlər sırf bolşevik mənafeyindən çıxış edirdilər. Əslində Azərbaycan hökumətinə, hakim dairələrinə düşmən mövqedə duranlar senzuranın, demək olar ki, yoxluğundan istifadə edərək, özlərinin "İskra", "Znamya truda", "Trudovoe Znamya", "Vpered", "Molot", "Nabat" və s. kimi mətbuat orqanları vasitəsilə bolşeviklərin və digər siyasi qüvvələrin müstəqil milli dövlət quruculuğuna qarşı yönələn və onun dayaqlarını sarsıdan ideyalarını açıq şəkildə təbliğ edirdilər. Ciddi müzakirələrdən sonra qəbul edilən "Mətbuat haqqında qanunnamə", bir sıra nöqsanlarına baxmayaraq, demokratik və azad mətbuatın inkişafı üçün real imkanlar açırdı. Nizamnaməyə görə, mətbu orqanların açılması üçün hökumətin razılığı tələb olunmurdu. Həddi-büluğa çatmış və məhkum olunmamış hər bir savadlı Azərbaycan vətəndaşı mətbu orqan aça bilərdi. Bu orqan yalnız məhkəmənin qərarı əsasında və cinayət törətdiyi halda məsuliyyətə cəlb oluna bilərdi. Dörd ay davam etmiş hökumət böhranı sosial həyat şəraitinin daha da pisləşməsinə səbəb oldu. Dövlətin sosial siyasətinin mühüm tərkib hissəsi olan səhiyyə sistemində yaranmış ağır vəziyyət bunu aydın göstərirdi. Respublika ərazisində malyariya, traxoma və digər tropik xəstəliklər yayılmaqda idi. Həkim və digər səhiyyə kadrları, dərmanlar çatışmırdı, əhali arasında, xüsusən kənddə

savadsızlığın yüksək səviyyəsi elementar sanitar-gigiyena tədbirlərinin uğurla həyata keçirilməsinə əngəl törədirdi. Sosial islahatların həyata keçirilməsi - əməyin təşkili və mühafizəsi sahəsində qanunların qəbul edilməsini, vergilərin varlı təbəqələrindən tutulmasını, dövlət aparatı işçilərinin aldığı maaşların artırılmasını, zəruri tələbat malları qiymətlərinin aşağı salınmasını nəzərdə tuturdu.

Parlamentarizm bərqərarlaşdıqca ölkədə Azərbaycan sosialist hərəkatı və başqa siyasi cərəyanlar fəallaşırdı. Bu dövrdə Azərbaycan kommunistləri Azərbaycan sol əsərlərilə ittifaqda idi. Onlar sosializm uğrunda inqilabi mübarizə və Sovet hakimiyyəti mövqeyində durur və milli məsələdə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin tanınması və onun müstəqil sovet respublikasına çevrilməsi tələblərini irəli sürürdülər. Ruhulla Axundov, Əhməd Əhmədov, Rəhim Hüseynov, Həbib Cəbiyev, Əli Bayramov və başqaları sol eserlərin fəal nümayəndələri idilər. Azərbaycan sol eserlər partiyasının yaranması 1918-ci ilin noyabrından başlanır. Bu partiya əsasən Bakı fəhlələri içərisində fəaliyyət göstərirdi. Doğrudur, Azərbaycan sol eserlər partiyası və digər müsəlman sosialist partiyaları geniş müsəlman zəhmətkeş kütlələri içərisində böyük nüfuza malik deyildilər, çünki Fevral inqilabının başlanmasından 1919-cu ilə qədər olan dövrdə azərbaycanlı əhali içərisində dərin siyasi ayrılıq nəzərə çarpmırdı. 1919-cu ilin noyabrında Bakıda "Xalqçı" müsəlman eserlər partiyasının Mərkəzi Komitəsi tam formalaşana qədər bu partiya qrupunun nümayəndələri müsəlman eser təşkilatına daxil idilər. ”Xalqçı" Partiyası əsasən ziyalılardan ibarət idi. Onun, deməl olar ki, bütün nümayəndələri ali və ya orta təhsil almışdı, sədri isə A. Səfikürdski idi. 1919-cu ilin sonu - 1920-ci ilin əvvəllərində "Xalqçı" artıq müstəqil partiya kimi fəaliyyət göstərirdi və Müsəlman Sosialist Blokunun üzvü hüququnda parlamentə daxil idi. Partiya, demək olar ki, bütün məsələlərdə "Müsavat"a qarşı tənqidlə çıxış edirdi. Buna görə də, bütövlükdə Müsəlman Sosialistlər Bloku hökumətin tərkibində qaldığı halda, "Xalqçı" partiyasının üzvləri N.Yusifbəylinin başçılıq etdiyi kabinetə daxil olmadı.

Kommunistlərlə əlaqədə hərəkət edən digər müsəlman sosial-demokrat partiyası "Hümmət" idi. Hakimiyyətə can atan kommunistlər müsəlman sosialist hərəkatı amilini nəzərə almaya bilməzdilər. Bu hərəkatın yerli əhali ilə möhkəm əlaqədə olmadığını nəzərə alan kommunistlər müsəlman sosialistlərinin işini bu istiqamətə yönəltməyə, eyni zamanda bu işə rəhbərliyi qeyri-rəsmi olaraq öz əllərinə keçirməyə çalışırdılar. Bundan Hümmət", "Əkinçi", "Ədalət" partiyaları daxil olmaqla, bütün ifrat sol müsəlman təşkilatlarının fəaliyyətini səmərəli şəkildə idarə etmək lazım idi. “Hümmət”lə münasibətdə bu partiyaların ənənələrini, rəhbərliyində menşeviklərin üstünlüyünü və onun sadə üzvlərinin Rusiya ilə bağlı olan hər şeyə etibar etmədiyini nəzərə alsaq, bu çox da sadə məsələ deyildi. 1919-cu ilin mayında rus bolşeviklərinin azərbaycanlılara təsirinin məhdudluğu barədə A.Mikoyan Moskvaya yazırdı: "Bizim partiyamızda ağıllı, işə sədaqətli və fəal müsəlman nümayəndələrinin kəskin çatışmazlığı müsəlman sosialistlərinin millətçi ruhlu sağ qanadını, müsəlman

fəhlələrinin bir hissəsini öz təsiri altında saxlamağa imkan verir. Sovet tipli hökuməti qəbul edənlər qorxurdular ki. bu, əcnəbi rus hökuməti olacaq və onların özləri hakimiyyətə gələ bilməyəcəklər" (10, v. 5). "Hümmət"i özlərinə tamamilə tabe edənə qədər bolşevik liderləri "Hümmət" rəhbərliyinin radikal və mülayim əhval-ruhiyyəli qanadları arasında daxili ziddiyyətləri qızışdırmaq yolu ilə partiyanı yenə və bu dəfə qəti parçalanmaya gətirib çıxartdılar. Bu hadisə iyulun sonlarında baş verdi. Partiyanın əvvəllər Tiflis mərkəzi ilə bağlı olan üzvləri öz təşkilatlarının köhnə adını (Sosial-Demokrat Fəhlə Partiyası "Hümmət") saxlamaqla özlərini sağ təşkilat kimi qələmə verirdilər. Onlar parlament sisteminin tərəfdarları kimi qalırdılar. 1919-cu ilin dekabrında onların liderlərindən biri - Ə.Pepinovun əmək naziri kimi N.Yusifbəylinin hökumət kabinetinə daxil olması bunu sübut edirdi. "Hümmət"in sol qanadı isə Azərbaycanda hakimiyyətin sovetlərə keçməsi məsələsini açıq şəkildə qoyurdu.

## ƏDƏBİYYAT


1. ARDSPİHA, f. 276, siy. 2,iş 21,q.2, v.1-2
2. Azərbaycan Xalq Cümhuriyyəti..., Parlament, I cild,., Bakı: 1998, 978 s
3. Азербайджанская Республика. Законодательные акты. Баку: Элм, 1998, 307 с.
4. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1996, 116 s.
5. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı: Azərnəşr, 1993, 362 s.
6. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Ankara, 1991, 218 s.
7. Həsənov C. "Ağ ləkələrin qara kölgəsi". Bakı: Gənclik, 1991, 200 s.
8. Azərbaycan tarixi 7 cilddə. V c. Bakı, Elm, 2008, 541 s.
9. ARDSPİHA, f. 277, siy. 1, iş 53, v. 5.


## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ И ЛЕВООРИЕНТИРОВАНЫЕ ОРГАНИЗАЦИИ В ПЕРИОД АДР


**С.К.АГАЕВ**


### РЕЗЮМЕ


Азербайджанская Демократическая Республика всегда встретился лицом к лицу с антиправительственной деятельности левых ориентированных организаций. Эти организации занимались подрывной деятельностью во время принятия законов в парламенте, а также рабочих и крестьян на их местах работы. Экономическая ситуация в новообразованного государства не было так хорошо. Это был широко использован для продвижения левой ориентированных организаций.



**Ключевые слова:**большевик, рабочий, крестьянин, экономика, правительство

## THE SOCIO-ECONOMIC SITUATION IN ADR AND LEFT-ORIENTED ORGANIZATIONS

**S.K.AGAYEV**

**SUMMARY**

The Azerbaijan Democratic Republic always faced anti-government activity are always the left-oriented organizations. These organizations were engaged in subversive activities during to the adoption of laws in the parliament, and at the workplaces of workers and peasants. Economic situation of the newly formed state was pleasant. Left-oriented organizationsabused this factor in their propaganda.

**Key words:** bolshevik, worker, peasant, economy, government